**860 Gender- əsaslı zorakılıqla bağlı Qaynar Xəttinə**

**01.12.2020-30.12.2021-ci il tarixinə olan müraciətlərin təhlili**

Zənglər bir neçə meyara əsasən təhlil edilir. Bu meyarlara zəng edənin cinsi, ailə vəziyyəti, təhsili, iş vəziyyəti, zorakılığın növü, hansı bölgədə yaşadığı, yaşı, zəng üçün müraciət edənin kim olduğu, eləcə də yönləndirildiyi tərəfdaş qurum daxildir. 01.12.2020-30.12.2021-ci il ərzində qəbul edilən zənglərin təhlilinə əsasən müəyyən edilmişdir:

Zəng edənlərin əksəriyyəti qadınlardır.

Bu müddət ərzində ümumi 436 zəng edəndən 339-i qadın, 97-i isə kişi olmuşdur.

**Ailə vəziyyətlərini təhlil** edərkən məlum olmuşdur ki, zəng edənlər arasında evli olanlar çoxluq təşkil edir. Onlar arasında 230 nəfər evli, 170 nəfər subay, 36 nəfər isə boşanmış olmuşdur.

**Təhsil səviyyəsi** meyarında orta təhsilli olanların üstünlük təşkil etdiyi məlum olmuşdur. 306 nəfər orta təhsilli, 112 nəfər ali təhsilli, 18 nəfər isə təhsilsiz olmuşdur.

Məlum olmuşdur ki, zəng edənlərin əksəriyyəti işsizdir. Bunlardan 296 nəfər işsiz, 140 nəfər işi olan şəxslərdir.

Zəng edənlərin əksəriyyəti psixoloji, iqtisadi, fiziki, cinsi növləri arasından psixoloji və fiziki zorakılığa məruz qalanlar olmuşdur.

Zəng edənlərin əksəriyyəti Bakıdan zəng edənlər olmuşdur. 276 nəfər Bakıdan 138 isə nəfərisə digər bölgələrdən olmuşdur.

Ümumi zəng edənlərin əksəriyyəti 18-35 yaş arasıdır. 436 nəfərin 201 18-35 yaş, 149-i 35-56 yaş, 68-i 56 yaşdan yuxarı, 18-i 0-18 yaş aralığına aid olmuşdur.

97 zəng edən kişidən 34-ü 18-35 yaş, 40-ı 35-56 yaş, 20-i 56 yaşdan yuxarı, 3-ü 0-18 yaş aralığına aid olmuşdur.

339 zəng edən qadından 167-i 18-35 yaş, 109-u 35-56 yaş, 48-i 56 yaşdan yuxarı, 15-i 0-18 yaş aralığına aid olmuşdur.

Həmçinin zəng edənlərin əksəriyyəti məişət zorakılığından zərərçəkən və vətəndaş mövqeyi göstərən şəxslərdir.